***Ölkə söyləyəndə o can yadımdan,***
***Can-can söyləyirdi bizə adından.***
***Sevirəm qəlbimlə həmin o canı,***
***Tanıyır dünyamız Azərbaycanı.***

Azərbaycanın ən qədim və misilsiz gözəlliklər diyarı Qəbələ! Hər şeydə öndə, hər zaman qədim mədəniyyəti, sərin sulu möhdəşəm dağları, valehedici, əsrarəngiz şəlalələri, rəngarəng, təkrarolunmaz, öz ecaskar təbiəti ilə zirvədə olan Qəbələm, sevimli yurdum.

Bu gözəl xalqın yetişdirdiyi Nizamilər, Füzulilər, Xaqanilər.....onların bəhrələndiyi kitab və kitabxanalar.

Kitab xalqın həyatına və məişətinə möhkəm daxil olmuşdur. O, xalqın mühüm mədəniyyət mənbələrindən biri Azərbaycan quruculuğunun qüdrətli tərbiyə vasitəsidir.

# Mənəvi sərvətlərin məbədgahı

Azərbaycan hökmətinin qayğısı nəticəsində kitab xalq içərisində geniş yayılmış, kütlələrin qüdrətli mənəvi sərvətinə çevrilmişdir.

Bəşəriyyətin ən mütərəqqi fikirli qabaqcıl adamları kitab haqqında böyük məhəbbətlə danışmışlar.

Karl Marks “Sizin ən çox sevdiyiniz məşğələ?” sualına “Kitablar içində əlləşmək” cavabını vermişdir. Xalq şairi Səməd Vurğunsa “Kitabsız bir ömrün nə mənası var” demişdir. Mehriban Əliyevanın “Heç bir komputer kitabı əvəz edə bilməz” sözləri həqiqətən də düz və yerindədir. Kitab haqqında fikirlər həddindən çoxdur. Bəs kitabın oxuculara düzgün çatdırılması, təbliği? Kitabxanaçı unversal olmalıdır. Fonddakı ədəbiyyatdan kitabxanaçının ümumi məlumatı olmalıdır ki, müxtəlif kateqoriyalı oxucuların sorğularına düzgün və dolğun cavab verilsin. Kitabxanaçılıq peşəsi qururverici bir peşə olsa da, həm də məsuliyyətli bir peşədir. Kitablara marağın oyadılmasında kitabxananın və kitabxanaçının böyük rolu vardır.

...Kitabxana elə bir məkan, elə bir informasiya saxlancıdır ki, burada baş verənlər cəmiyyətin tarixi yaddaşına müsbət və ya mənfi mənada həmişə təsir edib. Bəzən kitabxanalar mümkünsüzü mümkün edir: ən qədim, ən nadir əlyazmanı və yaxud abidəni minilliyin dərinliklərindən, təsəvvür etmədiyimiz şəraitlərdən, qopara-qopara, qoruya-qoruya günümüzə gətirir. Bəzən də minilliklər boyu kitabxanaya toplananlar bir anın içində məhv olur. Kitabxanalar nəsillərin gələcəyini düşünür, Elə isə biz də kitabxanaların gələcəyini düşünməliyik.”

Ulu öndər, dünya şöhrətli siyasətçi Heydər Əliyevin dediyi kimi “Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir”.

Kitabxanaya belə qiymət, gözəl və cəsarətləndiricidir. Bəs bizim Qəbələ Rayon Mərkəzi Kitabxana Sisteminin bu günü necədir?

Qəbələ rayon MKS-i 1930-cu ildən etibarən fəaliyyət göstərir. Hazırda MKS-nin tərkibində 1 mərkəz, 3 şəhər, 23 qəsəbə və kənd kitabxana filialı vardır. MKS-nin mərkəzi kitabxanasında 6 şöbə fəaliyyət göstərir. MKS-nin direktoru Ramiz Mirzəyev öz işinin bilicisi, məsuliyyətli bir ziyallıdır.

Qəbələ rayon MKS-nin umumi fondunda 145 mindən yuxarı ədəbiyyat var. Bu elmin müxtəlif sahələrini və bədii ədəbiyyatı əhatə edir. Oxuculara mədəni xidməti yüksək səviyyədə təşkil etmək üçün kitabxanamızda bütün kitabxanaçılar əlindən gələni əsirgəmirlər. Kitabların oxuculara verilməsi, vaxtlı-vaxtında qaytarılması, oxucu sorgularının ödənilməsi, sərgi, guşə, stentlərin təşkil edilməsi, müəyyən mövzulu tədbirlər, oxucu konfransları, unudulmaz günlərin qeyd edilməsi, kitaba və kitabxanaya marağın artırılması kitabxanaçılarımızın daim diqqət mərkəzindədir.

Çalışırıq ki, oxuculara xidmət işi daha da yaxşılaşdırılsın. Bunun üçün kitabxanamız texniki avadanlıqla zənginləşdirilsin. Hazırda kitabxanamız İRBİS 64 proqramı ilə işləyir. Bu proqram vasitəsi ilə kitabxanamızda olan bütün növ ədəbiyyatın elektron kataloqlaşdırılması işi həyata keçirilir. Bundan başqa proqramda oxucuların qeydə alınması, qəzet məqalələrinin kortatekası, retro kataloq, diyarşunaslıq, uşaq ədəbiyyatı, SD (disklər) və s. bazalar yaradılmışdır. Hazırda bazalar üzrə bütün növ elektron resursun həcimi 100 mindən yuxarıdır.

Kitabxanamız retro kitablarla yanaşı yeni gəlmiş ədəbiyyatla da zənginləşdirilir. Oxucu sorğularını nəzərə alaraq yeni gəlmiş nəşrlərin mərkəzi kitabxana və filiallar arasında düzgün bölünməsinə xüsusi diqqət verilir. Yeni biliklərin öyrənilməsi, onların qəsəbə və kənd filiallarına ötürülməsi də diqqət mərkəzindədir.

Qeyd etməliyəm ki kitabxanamızda oxuculara xidmət işi çox gözəl həyata keçirilir. Kitabxanaçılarımız öz işlərinin öhdəsindən layiqincə gəlməyə çalışırlar. Oxu mədəniyyətinin təbliq edilməsini də kitabxananın mühüm vəzifəsi hesab etmək lazımdır. Oxuculara oxu vərdişləri, bilik əldə etmək, mədəni görüş dairəsini genişləndirmək, kitabı seçmək və onlarla işləmək bacarığını artırmaq üçün kitabxanaçılar əlindən gələn qədər oxuculara aşılayırlar. Kitabxanamızda isə bu işlərin öhdəsindən layıqıncə gələn kitabxanaçılarımız çoxdur. Məlahət Qarayeva, Sədaqət Kərimova, Tahirə Qafarova, Sevil Əhmədova, İlhamə Nəbiyeva, Sevil Göyüşova və s. belə işçilərdəndirlər. Oxuclarımızın bəziləri kitabxanaçılarımızı yüksək səviyəli, öz işinin mütəxəssisi adlandırmışlar. N. Krupskayanın dediyi kimi “Kitabxanaçı müəllimlər müəllimidir” və kitabxanaçılar bu adın öhdəsindən layiqincə gəlməlidirlər.

Qəbələ rayon MKS-i hal-hazırda 18 mindən yuxarı oxucuya malikdır. Kitabxanamızda müxtəlif peşəyə malik oxucular vardır, onlardan ən fəal oxucuların adlarını çəkmək həqiqətən də yerinə düşər. Fərman Əzizli (əməkdar müəllim), Arzu Tağıyeva (həkim), Vüsalə Osmanova (müəllimə), Elnur Qəribov (mühafizəçi), Nigar Rəsulzadə (tibb bacısı), Mübariz Sadullayev (tələbə), Səfərçinov Cəlil (şair), Humay Həmidova (müəllimə), Vüqar Abdurahmanov (polis), Aytac Səmədzadə (məktəbli) belə oxuculardandır.

**Günel Qarayeva.**

# TƏQVİMDƏN SƏTİRLƏR

**22 dekabr:** Yazıçı, dramaturq, rejissor, ssenarist, əməkdar incəsənət xadimi **Həsən Seyidbəyli** (1920—1979) Bakıda anadan olmuşdur. Bir neçə filmin rejissoru olub, onun ssenariləri əsasında başqa rejissorlar da film çəkiblər. Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri işləmişdir.

Əməkdar jurnalist, ictimai xadim, professor **Nəsir İmanquluyev** anadan olmuşdur.

Sovetlər dövründə “Kommunist” qəzetində məsul katib, “Bakı” və “Baku” axşam qəzetlərinin redaktoru olmuş, BDU-da jurnalistika məsələlərinə aid dərs demişdir.

Əfsanəvi partizan, Sovet İttifaqı Qəhrəmanı **Mehdi Hüseynzadə** (1918—1944) anadan olmuşdur.

**23 dekabr:** Texnika elmləri doktoru, Dövlət mükafatı laureatı **Fatma Süleymanova** (1912—1978) dünyaya gəlmişdir. Elmlər Akademiyasının Neft-Kimya Prosesləri İnstitutunda laboratoriya müdiri işləmiş, əsas tədqiqatları motor yağlarına aid olmuşdur.

**24 dekabr:** Görkəmli alim, filosof, akademik Firudin Köçərli 1921-ci ildə anadan olmuşdur. Azərbaycan Dövlət Universitetində müəllim, EA-nın fəlsəfə bölməsinin rəhbəri, Fəlsəfə və Hüquq İnstitutunun direktoru vəzifəsində işləmişdir. N. Nərimanov Ü. Hacıbəyli, C. Məmmədquluzadə və başqa görkəmli şəxsiyyətlərin fəlsəfi görüşlərinə aid elmi tədqiqatlar aparmışdır.

Azərbaycan tarixinə aid fundamental tədqiqat əsərlərinin müəllifi, şərqşünas alim, müharibə iştirakçısı, Sovet İttifaqı Qəhrəmanı **Ziya Bünyadov** (1923—1997) Astarada anadan olmuşdur. EA Tarix İnstitutunun direktoru işləmiş, millət vəkili olmuşdur.

Türkiyə şairi **Tofiq Fikrət** (1867—1915), rus yazıçısı **Aleksandır Fadayev** (1901—1965) anadan olmuşlar. Fadeyevin «Tarmar», «Gənc qvardiya» romanları məşhurdur. SSRİ Yazıçılar İttifaqının katibi və sədri olmuşdur. Dərin ruhi böhran nəticəsində intihar etmişdir.

**25 dekabr:** Ədəbiyyatşünas alim, pedaqoq professor **Əli Sultanlı** (1906—1960) anadan olub. Azərbaycan Dövlət Universitetində dekan, kafedra müdiri, prorektor işləmiş, elmi-tədqiqat əsərləri, dərsliklər yazmışdır.

**26 dekabr:** Xalq artisti, baletmeyster **Əminə Dilbazi** (1919—2010) dünyaya gəlmiş, Opera və Balet Teatrında bir sıra tamaşalarda rəqslərin quruluşunu vermiş, pedaqoji fəaliyyət göstərmişdir.

**27 dekabr:** Xalq artisti, beynəlxalq müsabiqədə qranpri mükafatı laureatı olmuş **Fərhad Bədəlbəylinin** ad günüdür. 1947-ci ildə Bakıda doğulmuşdur. Bakı Musiqi Akademiyasının rektorudur. Hər il Qəbələdə keçirilən Beynəlxalq Musiqi Festivalının bədii rəhbəri olmuşdur.

**28 dekabr:** SSRİ və Azərbaycanın xalq artisti, müğənni **Zeynəb Xanlarovanın** ad günüdür. Bir çox xarici ölkələrdə də Azərbaycan musiqisini, mədəniyyətinii təbliğ etmişdir, Milli Məclisin deputatıdır.

**29 dekabr:** Yazıçı **Əzizə Cəfərzadə** (1921—2003) Şamaxıda anadan olmuşdur. Tarixi romanları, hekayələri var. ADU-da dərs demişdir.

Xalq rəssamı, 2 dəfə Azərbaycan Dövlət mükafatı laureatı **Kamil Nəcəfzadə** (1929—2011) anadan olmuşdur.

**30 dekabr:** Xalq artisti **Əbülfət Əliyev** (1926—1990) Şuşada anadan olmuşdur. Məlahətli səsi ilə xalq mahnıları və muğamların gözəl ifaçısı idi. Opera və Balet Teatrında Məcnun, Kərəm, Şah İsmayıl partiyalarını oxumuşdur.

**31 dekabr**: Şair **Zeynal Cabbarzadə** (1920—1977), coğrafiaşünas alim **Gül Qasım Kazım oğlu** (1909—1972) anadan olmuşlar.

**Nadir ATAKİŞİYEV.**

# Fövqəladə hallar uşaqların gözü ilə

FHN yaradılmasının 10 illik yubileyinə həsr edilmiş “Fövqəladə hallar uşaqların gözü ilə” mövzusunda məktəblilər arasında keçirilmiş V Ümumrespublika və I Beynəlxalq uşaq yaradıcılıq müsabiqəsinin qaliblərinin sərgisi və mükafatlandırəılması mərasimi keçirildi.

FNH Akademiyasında keçirilən tədbirdə fövqəladə hallar nazirinin müavini, general- leytenant Faiq Tağızadə, təhsil nazirinin müavini Ceyhun Bayramov, BMT-nin Uşaq Fondunun (UNİCEF) Azərbaycandakı nümayəndəliyinin təmsilçisi Andro Şilakadze çıxış edərək uşaqları salamladılar. Onlar bildirdilər ki, müsabiqənin keçirilməsində məqsəd uşaqlara təhlükəsiz həyat fəaliyyətinin əsaslarının oyrədilməsi, istedadlı uşaqların üzə çıxarılması və onlara dəstək verilməsi, yetişməkdə olan gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasıdır.

Müsabiqədə rəsm, plakat, əl işi, yanğın və qəza-xilasetmə texnikasının modeli, yumşaq oyuncaq nominasiyaları üzrə sərgidə 503 rəsm, 305 plakat, 197 əl işi, 191 yanğın və qəza-xilasetmə modeli və 167 yumşaq oyuncaqdan ibarət əl işləri sərgiləndi.

Müsabiqədə Türkiyə, Rusiya, Belarus, Gürcüstan, Qırğızıstan, Qazaxıstan, Koreya, Macarıstan və Moldava məktəbliləri də iştirak edirdilər.

Sərgidə I yeri Gürcüstan məktəblisi tutdu. Sevindirici haldır ki, belə möhtəşəm sərgidə Qəbələ rayon Uşaq Yaradıcılıq Mərkəzinin üzvləri də iştirak edirdi. Mərkəzin dərnək üzvləri şəhər 1 saylı tam orta məktəbin X sinif şagirdi Adilə Həmidova və şəhər 4 saylı tam orta məktəbin VI sinif şagirdi Şəbnəm Şıxqəmzəyeva əl işləri nominasiyası üzrə II yeri tutaraq, FHN və Təhsil Nazirliyinin fəxri fərmanları və hədiyyələrlə təltif edildilər.

**Rəfiqə HƏMİDOVA,**
**uşaq yaradıcılıq məktəbinin direktoru.**